

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 7 (23.419)

*15 yanvar 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Yanvarın 14-də görkəmli neftçi-alim və geoloq, SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin 90 illik yubileyi münasibətilə mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə çıxış edərək Xoşbəxt Yusifzadəni yubileyi münasibətilə ürəkdən təbrik edib, ona cansağlığı, yeni uğurlar arzulayıb.

Sonra Xoşbəxt Yusifzadənin “Heydər Əliyev” ordeni ilə təltif olunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxunub.

Prezident İlham Əliyev “Heydər Əliyev” ordenini Xoşbəxt Yusifzadəyə təqdim edib.

Xoşbəxt Yusifzadə çıxış edərək minnətdarlığını bildirib.



## Naxçıvanda sosial qayğıya ehtiyacı olanlara fərdi yaşayış evləri, mənzillər və avtomobillər təqdim olunub





Yanvarın 14-də 1 şəhid ailəsinə, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda və hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış 3 nəfərə fərdi yaşayış evləri və mənzillər, eyni zamanda Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda, hərbi xidmət vəzifələrinin icrası zamanı və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında sağlamlığını itirmiş 11 nəfərə “NAZ-Lifan 330” markalı avtomobillər təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mənzil və avtomobillə təmin olunanları təbrik edərək demişdir: Bu gün Azərbaycan dövləti qarşısında xidməti vəzifələrini layiqincə yerinə yetirənlərə, ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda sağlamlığını itirənlərə, şəhid ailəsinə, eləcə də Çernobıl qəzasının aradan qaldırılmasında iştirak edən şəxslərə mənzil və avtomobillər təqdim olunur. Bu insanların dövlətimiz qarşısındakı xidmətləri nümunə gücündədir. Mənzil və avtomobillərin təqdim olunması isə dövlətimizin ərazi bütövlüyünün qorunmasında həyatını və sağlamlığını itirmiş şəxslərə göstərdiyi qayğının, ölkəmizdəki dövlət-xalq birliyinin daha bir ifadəsidir.

“O ölkənin suverenliyi və ərazi bütövlüyü qorunur ki, həmin ölkədə vətənpərvər insanlar vardır. Vətənpərvər insanlar hər bir ölkənin ən qiymətli sərvətidir”, – deyən Ali Məclisin Sədri mənzil və avtomobillə təmin olunanlara ölkəmiz və xalqımız qarşısındakı xidmətlərinə, göstərdikləri vətənpərvərlik nümunəsinə görə təşəkkür etmişdir.

Ali Məclisin Sədri demişdir: Dövlətimiz və xalqımız qarşısında xidməti olan şəxslərə bundan sonra da daim qayğı göstəriləcəkdir. Ona görə ki, Azərbaycanda ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik yolu ölkə Prezidenti tərəfindən uğurla davam etdirilir. Bu gün mənzil və avtomobillərin təqdimatının keçirilməsi də ulu öndər Heydər Əliyev dövlətçilik yoluna nümunədir.

Ali Məclisin Sədri fərdi yaşayış evi, mənzil və avtomobillə təmin olunanları bir daha təbrik etmişdir.



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək demişdir ki, muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsi, təhsili, məşğulluğu və yaradıcılıq potensiallarının aşkar edilməsi diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, sosial qayğıya ehtiyacı olan şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara minik avtomobillərinin verilməsi sahəsində də ardıcıl tədbirlər görülür. Ötən il müvafiq kateqoriyalı 17 ailəyə fərdi yaşayış evləri və mənzillər, 35 nəfərə minik avtomobilləri təqdim edilmişdir. Nicat Babayev sağlamlıq imkanları məhdud şəxslərə göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Ali Məclisin Sədri avtomobillərin açarlarını, fərdi yaşayış evləri və mənzillərin orderlərini təqdim etmişdir.

Avtomobillə təmin olunan Sadıq Əlibəyli demişdir: “Muxtar respublikada vətənimizin azadlığı və ərazi bütövlüyünün qorunması zamanı, habelə Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edərək sağlamlığını itirənlərə, şəhid ailələrinə dövlətimiz tərəfindən hər zaman yüksək diqqət və qayğı göstərilir. Sağlamlıq imkanları məhdud şəxslər, şəhid ailələri mənzillə təmin olunur, onlara minik avtomobilləri verilir, müalicələrinə köməklik göstərilir. Ailəmiz üçün də olduqca sevindirici olan bugünkü tədbir bizə göstərilən dövlət qayğısının növbəti təzahürüdür”. Sadıq Əlibəyli sağlamlıq imkanları məhdud şəxslər və onların ailə üzvləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmiş, yubileyi münasibətilə təbriklərini çatdırmışdır.

Şəhid anası Tükəzban İsmayılova demişdir: “Dövlətimiz şəhid ailələrinə hərtərəfli qayğı göstərir. Rahat yaşayırıq. Sosial problemlərimizin həlli daim diqqətdə saxlanılır. Bu gün mənzillə təmin olunmağım da muxtar respublikada bu sahədə görülən işlərin davamı, şəhid ailələrinə göstərilən diqqətin daha bir ifadəsidir. Bütün bunlara görə ölkə Prezidentinə dərin minnətdarlıq edirəm”.

Mənzillə təmin olunan İlkin Orucov və digərləri də onlara göstərilən qayğıya görə minnətdarlıq etmişlər.



Fərdi yaşayış evləri Ordubad rayonunun Darkənd və Şərur rayonunun Dəmirçi kəndlərində, mənzillər isə Babək qəsəbəsindəki yeni yaşayış binasında yerləşir. Fərdi yaşayış evləri və mənzillər tam təmir olunmuş, lazımi kommunal-məişət şəraiti yaradılmış, xalça hədiyyə edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində 2019-cu ildə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının xidməti-döyüş fəaliyyətinin yekunları və 2020-ci ildə qarşıda duran vəzifələrin icrası ilə bağlı yığıncaq keçirilib.***

Yığıncağı giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov açıb. Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının komandiri, general-mayor Səlim Niftəliyev hesabat məruzəsi ilə çıxış edib. 2019-cu ildə həyata keçirilən tədbirlər barədə məlumat verdikdən sonra məruzə ətrafında müzakirələr olub.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov yığıncaqda çıxış edib. Bildirib ki, muxtar respublikada Silahlı Qüvvələrin digər birləşmə və bölmələri kimi, Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının da xidməti-döyüş fəaliyyətinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır, hərbi hissənin maddi-texniki bazası ilbəil gücləndirilir, hərbi qulluqçuların sosial qayğıları aradan qaldırılır. Son illər ərzində briqadanın fəaliyyətinin təşkili, idarə olunması və şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər görülüb, hərbi hissənin yerləşdiyi ərazidə geniş quruculuq işləri aparılıb, ən müasir infrastruktur və nümunəvi hərbi şəhərcik yaradılıb. Hərbi hissə müasir texniki vasitələr, silah-sursat və nəqliyyat vasitələri ilə təmin olunub, hərbi qulluqçuların döyüş və fiziki hazırlığı, xidmət şəraiti, sosial müdafiəsi daha da gücləndirilib. Xidməti ərazi üzrə döyüş tapşırıqlarının operativ icrasının təmin edilməsi məqsədilə Şərur rayonu ərazisində inşa olunan və ayrı yerləşən əməliyyat taborunun qərargah binası, əsgər yataqxanası və hərbçi ailələri üçün yaşayış mənzilləri yüksək standartlar səviyyəsində tikilib başa çatdırılmaq üzrədir.

Qeyd olunub ki, həyata keçirilən məqsədyönlü idarəetmə sistemi və yüksək dövlət qayğısı nəticəsində hərbi hissə ötən dövr ərzində böyük inkişaf yolu keçib. 1995-ci il aprel ayının 10-da yaradılan Daxili Qoşunların Naxçıvan taboru 2002-ci ilin dekabr ayında Alaya, 2014-cü ilin sentyabr ayında isə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasına çevrilib.

Bu gün briqadada yüksək mənəvi-psixoloji hazırlığa malik əsgər və zabitlər xidmət edirlər. Bunun nəticəsidir ki, təkcə 2019-cu ildə hərbi hissə Naxçıvan Muxtar Respublikasında Türkiyə Respublikasının hərbçiləri ilə birgə təşkil olunmuş “Sarsılmaz qardaşlıq” adı altında keçirilən əməliyyat-taktiki təlimlərdə, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının əməkdaşları ilə birlikdə keçirilən “Sərhəd pozucularının axtarılması və tutulması” adlı təlim məşqlərində, eləcə də Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları ilə birgə təşkil olunan komanda qərargah təlimlərində uğurla iştirak edib. Bundan əlavə, briqadada son iki ildə ardıcıl olaraq Daxili Qoşunların Baş İdarəsi tərəfindən keçirilən inspeksiya yoxlamalarının nəticələrinə görə Daxili Qoşunların hərbi hissələri arasında 1-ci yeri tutub.

Əldə olunmuş nailiyyətlər əvəzsiz qalmayıb, ötən il 13 hərbi qulluqçu medalla təltif edilib, 2 hərbi qulluqçuya həvəsləndirmə qaydasında vaxtından əvvəl hərbi rütbələr verilib.

Nazir qarşıda duran vəzifələrin 2020-ci ildə uğurla yerinə yetirilməsi məqsədilə şəxsi heyətə tapşırıqlarını verib.

* * *



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində keçirilən kollegiya iclasında çıxış edən nazir Tapdıq Əliyev bildirib ki, ötən 2019-cu ilin nəticələrinə əsasən muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi bir il öncəki dövrlə müqayisədə 1,5 faiz artaraq 2 milyard 839 milyon manatdan çox olub. Onun hər bir nəfərə düşən həcmi isə 6 min 202 manat təşkil edib ki, bu da 2018-ci ilin müvafiq göstəricisinə nisbətən 1,6 faiz çoxdur.

Sənayeləşmə sahəsindəki uğurlardan bəhs edən nazir vurğulayıb ki, 2019-cu ildə sahibkarlıq subyektləri tərəfindən 75 istehsal və xidmət sahəsi istifadəyə verilib, 247 iş yeri açılıb. 62 layihənin icrası davam etdirilib. Yeni emal müəssisələrinin fəaliyyətə başlaması sənayenin inkişafına da əhəmiyyətli təsir göstərib. 2019-cu ildə sənaye məhsulunun həcmi artaraq 1 milyard 15 milyon manata yaxın olub. Sahibkarlara güzəştli kreditlərin verilməsi, özəl bölmənin maliyyə resursları ilə təmin olunması məqsədilə ötən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən 117 layihənin maliyyələşdirilməsinə 10 milyon 715 min manatdan çox güzəştli kreditlər ayrılıb. Ümumilikdə, həyata keçirilən tədbirlərin nəticəsində bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir.

Diqqətə çatdırılıb ki, ölkə Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən Şərur rayonunda Şərur Sənaye Məhəlləsinin yaradılması sənayenin inkişafına yeni imkanlar açacaqdır. Tələbatın müəyyən hissəsini yerli istehsal hesabına ödəmək məqsədilə sənaye məhəlləsində 6 istehsal korpusu yaradılacaq.

Kənd təsərrüfatı sahəsindəki görülmüş işlərdən də danışan nazir qeyd edib ki, muxtar respublikada bu sahə üzrə innovativ meyarlara uyğun ən müasir tələblərə cavab verən quşçuluq və heyvandarlıq kompleksləri yaradılır. Ötən il dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına 3 soyuducu anbarın genişləndirilməsi, 4 soyuducu anbarın yaradılması başa çatdırılıb, bundan əlavə, 1 istixana təsərrüfatı yaradılıb, 3 istixana təsərrüfatının yaradılması isə davam etdirilir. Kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələrinin yaradılması, yerli resurslardan səmərəli istifadə nəticəsində 2019-cu ildə 507 milyon 641 min manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunub.

Vurğulanıb ki, 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunması, ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planının icra edilməsi mövcud potensialdan istifadə etməklə yeni ailə təsərrüfatlarının yaradılmasına, istehsalın genişlənməsinə, yeni iş yerlərinin açılmasına stimul verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin arıçılığın və ailə təsərrüfatlarının inkişafı ilə bağlı imzaladığı müvafiq sərəncamların icrası istiqamətində 2019-cu ildə 87 ailə təsərrüfatına 820 min manat dövlət maliyyə dəstəyi göstərilib. 315 ailə təsərrüfatı 12 min 800-dən çox tara ilə təmin olunub. 2019-cu ildə “Kətə” “Göycə”, “Arıçılıq məhsulları – bal”, “Ailə təsərrüfatı məhsulları” festivallarının keçirilməsi bu sahəyə marağın artmasına və istehsal olunan məhsulların satış bazarının genişlənməsinə müsbət təsir göstərib.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində keçirilən iclası idarənin rəisi-auditor Hafiz İsmayılbəyli açıb. Bildirib ki, idarə tərəfindən ötən il Naxçıvan Muxtar Respublikası büdcəsinə maliyyə-büdcə nəzarət tədbirləri çərçivəsində 10 müəssisə, idarə və təşkilatlar üzrə audit tədbirlərinin planlaşdırılması, proqramları, işçi planları hazırlanaraq kənar dövlət maliyyə nəzarəti həyata keçirilib. Eyni zamanda ötən il ərzində 9 müəssisə, idarə və təşkilat üzrə analitik təhlil aparılıb.

Qeyd edilib ki, audit tədbirlərinin əhatə etdiyi büdcə vəsaitlərinin 14,7 faizi mərkəzi icra hakimiyyəti orqanları və onların tabeli qurumları, 67,6 faizi elm, 14,1 faizi kənd təsərrüfatı, 3,6 faizi isə sosial müdafiə və sosial təminat müəssisələri tərəfindən icra olunub. İdarə tərəfindən 9 təşkilat üzrə aparılan analitik təhlilin hamısında maliyyə hesabatlarının düzgün doldurulmadığı müəyyən edilib. Audit zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq təşkilatlara məktub göndərilib.

Vurğulanıb ki, “Naxçıvan Muxtar Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə dair rəy hazırlanaraq Ali Məclisə təqdim edilib. Gələcək dövrlərdə də dövlət büdcə-maliyyə nəzarətinin qanunvericiliklə müəyyənləşdirilmiş qaydada və səlahiyyətləri daxilində icra edilməsi, ekspert-analitik fəaliyyətin həyata keçirilməsi, maliyyə-büdcə ekspertizası ilə bağlı audit aparılması təmin ediləcəkdir.

İclas məruzə ətrafında çıxışlarla davam edib.

**Xəbərlər şöbəsi**

***AMEA-nın Naxçıvan Bölməsində muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün “Naxçıvan Muxtar Respublikası müstəqillik illərində (1995-2019-cu illər)” mövzusunda interaktiv dərs keçilib.***

# İnteraktiv dərs keçilib



Bölmənin sədri, akademik İsmayıl Hacıyev dərsdə şagirdlərə Naxçıvan Muxtar Respublikasında 1995-2019-cu illərdə geniş vüsət alan tikinti, quruculuq, abadlıq və digər sahələrdə aparılan işlər barədə ətraflı məlumat verib.

Akademik Naxçıvanın ermənilər tərəfindən blokadaya alındığı bir zamanda ümummilli lider Heydər Əliyevin Naxçıvana gəlməsi və onun əvəzsiz xidmətlərindən danışıb. Bildirib ki, ulu öndərin quruculuq xəttinin davam etdirilməsi sonrakı dövrlərdə də muxtar respublikanın inkişafını təmin edib, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvan hərtərəfli inkişafa nail olub.

Vurğulanıb ki, muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar qısa dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olmasını təmin edib, iqtisadiyyatın dinamik inkişafına təkan verib.

Naxçıvanda sosial-humanitar sahələrdə də qazanılan uğurlardan bəhs edən İsmayıl Hacıyev qeyd edib ki, muxtar respublikada dinamik və əsaslı inkişaf edən sahələrdən biri də elm sahəsidir. Azərbaycan elminə hər zaman hamilik etmiş ümummilli lider Heydər Əliyev siyasi kursunun davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında elm infrastrukturu tamamilə yenidən qurulub.

“Elmə qayğı alim və tədqiqatçıların yetişməsi üçün də geniş imkanlar açıb”, – deyən alim bildirib ki, bu dövrdə tədqiqatçıların çoxsaylı kitab və monoqrafiyaları, dərslik və dərs vəsaitləri, məqalə və tezisləri çap edilib, ümumiləşdirici fundamental kitablar nəşr olunub. Ali Məclis Sədrinin xüsusi sərəncamı ilə muxtar respublika ərazisindəki 1213 tarix və mədəniyyət abidəsi qeydə alınaraq pasportlaşdırılıb, 70-dən çox tarix və mədəniyyət abidəsi bərpa olunub.

Qeyd edilib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, irəli sürülən təşəbbüslər, həyata keçirilən islahatlar sayəsində ölkəmiz böyük uğurlar əldə edib, güclü dövlətlərdən birinə çevrilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Kollegiya iclasları olub



Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda ötən ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirilib. İclasda fondun sədri Əli Quliyev çıxış edərək bildirib ki, 2019-cu il ərzində vergi orqanları tərəfindən məcburi dövlət sosial sığorta haqlarının toplanması üzrə fondun xəzinə hesabına 77 milyon 807 min manat vəsait daxil olub. Bu da 2018-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 5 milyon 978 min manat və ya 8,3 faiz çoxdur.

Qeyd edilib ki, fond tərəfindən müvafiq dövlət orqanları ilə birlikdə işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət məqsədilə keçirilən monitorinqlər zamanı Naxçıvan Muxtar Respublikasında 355 sahibkarlıq obyektində 620 əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil olunmadığı aşkar edilib, 582 əmək müqaviləsində isə əməkhaqqı artırılıb.

Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il büdcəsinin gəlirləri üzrə proqnoz tapşırıqlara artıqlaması ilə əməl olunması muxtar respublikada əmək pensiyaları və müavinətlərin də vaxtlı-vaxtında maliyyələşdirilməsinə əlverişli şərait yaradıb. Ötən il ərzində fondun yerli orqanları tərəfindən, ümumilikdə, 1431 nəfərə əmək pensiyası təyin edilib.

Vurğulanıb ki, hesabat dövründə 48 min 900 nəfərə yaxın əmək pensiyaçısının pensiyalarının sığorta hissəsi 3 faiz artırılıb. Bəhs olunan dövrdə pensiyaların orta aylıq məbləği 237 manat təşkil edib.

“1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 aprel tarixli Sərəncamına müvafiq olaraq muxtar respublika üzrə bu kateqoriyadan olan pensiyaçılara, ümumilikdə, 390 min 500 manat vəsait ödənilib.

Fondun sədri diqqətə çatdırıb ki, ötən il ərzində muxtar respublika üzrə kənd yerlərində yaşayan 190 əmək pensiyaçısının istəkləri nəzərə alınmaqla, onların pensiyaları poçt bölmələri vasitəsilə ödənilib.

Hesabat dövründə sosial sığorta şəhadətnaməsi ilə təmin edilmiş sığortaolunanların sayı 177 min 450 nəfərə çatıb.

İclas məruzə ətrafında çıxışlarla davam edib.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində keçirilən kollegiya iclasında xidmətin rəisi Namiq Paşayev məruzə ilə çıxış edib. Bildirib ki, bəhs olunan dövrdə xidmət tərəfindən elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlifgərginlikli transformator yarımstansiyalarında əsaslı və cari təmir işləri aparılıb. Tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, müxtəlifgərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilib.

Diqqətə çatdırılıb ki, muxtar respublikada mövcud olan bütün su elektrik stansiyalarında, transformator yarımstansiyalarında aşkarlanan nöqsanların aradan qaldırılması təmin olunub. Həmin obyektlərin müəyyən edilmiş texniki tələblərə cavab verməsi üçün istismar müddəti başa çatmış hissələr yeniləri ilə əvəzlədirilib.

Qeyd olunub ki, ötən il 23 yeni transformator yarımstansiyası fəaliyyətə başlayıb. Smartkarttipli sayğacların sayı 25 min 156-ya çatdırılıb.

Məruzə ətrafında çıxışlar olub.

**✍ Nail ƏSGƏROV**

# “İnkişaf və tərəqqinin 25 ili” adlı rəsm sərgisi açılıb



*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 60 illik yubileyinə həsr olunmuş “İnkişaf və tərəqqinin 25 ili” adlı sərgi keçirilib.*

Tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, Azərbaycanın gözəl və qədim Naxçıvan diyarında rəssamlıq sənətinə daim böyük maraq olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində burada rəssamlığın və təsviri sənətin inkişafı sahəsində ardıcıl tədbirlər görülüb, ötən 25 il ərzində bu sahədə ciddi dönüşə nail olunub. Belə ki, Azərbaycanın ilk realist rəssamı, professional dəzgah boyakarlığının banisi Bəhruz Kəngərlinin adını daşıyan muzey, Rəssamlar Parkı yaradılıb, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonu təşkil edilib, Naxçıvan Dövlət Universitetində Təsviri incəsənət müəllimliyi və rəngkarlıq, Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət müəllimliyi ixtisasları açılıb, rəssam emalatxanaları yeniləri ilə əvəz edilib, Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə Rəssamlar Birliyinin 40 illik yubileyi geniş şəkildə qeyd olunub, 2019-cu il 25 may tarixli Sərəncama əsasən muxtar respublikanın 95 illik yubileyi ilə əlaqədar Rəsm festivalı keçirilib.

Vurğulanıb ki, göstərilən diqqət və qayğı sayəsində Rəssamlar Birliyi tərəfindən muxtar respublikada fəaliyyət göstərən rəsm dərnəklərində ustad dərsləri keçilir və birliyin hamiliyinə verilən ali təhsil müəssisələri tələbələri ilə mütəmadi işlər aparılır, gənc rəssamların iştirakı ilə rəsm festivalları, müsabiqələr, sənət döyüşləri (Art Batle) və plenerlər təşkil olunur. Rəssamlarımız mütəmadi olaraq muxtar respublika, ölkəmiqyaslı, beynəlxalq sərgi və festivallarda doğma Naxçıvanımızı yüksək səviyyədə təmsil edir, onların əməyi dövlətimiz tərəfindən qiymətləndirilir, fəxri adlarla təltif edilirlər. Bu gün qədim diyarımızda aparılan abadlıq, quruculuq, insanların rifahı üçün görülən genişmiqyaslı işlər biz rəssamlar üçün tükənməz ilham mənbəyinə çevrilib.

Ülviyyə Həmzəyeva çıxışının sonunda muxtar respublikada rəssamlığın inkişafına göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə Rəssamlar Birliyi adından dərin minnətdarlığını bildirib, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən “Şərəf” ordeni ilə təltif edilməsi və 60 illik yubileyi münasibətilə təbriklərini çatdırıb, cansağlığı, muxtar respublikanın inkişafı naminə göstərdiyi yorulmaz fəaliyyətində uğurlar arzu edib.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, Memarlar Birliyinin sədri Heydər Əhmədov, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamları Cavid İsmayılov və Həbibə Allahverdiyeva çıxış edərək yazıçı və rəssamlara göstərilən diqqət və qayğıdan danışıb, muxtar respublika rəhbərinə yubiley təbriklərini çatdırıblar.

Sonra sərgiyə baxış olub. Ülviyyə Həmzəyevanın “Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin portreti”, Sabir Məmmədlinin “Naxçıvan qurucusu”, Həbibə Allahverdiyevanın “Müdrik ideyaların işıqlı təcəssümü”, Səyyad Bayramovun “Gözəlləşən diyar”, Paşa Rəhimovun “Cənab Sədrimiz” və digər rəsm əsərləri maraqla qarşılanıb.

Qeyd edək ki, 14 rəssamın 60 əsəri nümayiş olunan sərgi bir neçə gün davam edəcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

# ...Vətəndaşlarımız daha da yaxşı yaşasın və ya insana qayğı milli-mənəvi dəyərə çevriləndə...

*Əvvəlki illərdə olduğu kimi, 2019-cu ildə də həyatımızın bütün sahələrini əhatə edən yeniləşmə prosesi davam etdirildi, kompleks quruculuq tədbirlərinin coğrafiyası genişləndirildi, emal və istehsal sahələrinin inkişafına dəstək göstərildi, yeni iş yerlərinin yaradılması diqqət mərkəzində saxlanıldı. Həyata keçirilən məqsədyönlü tədbirlər uğurlu nəticələr qazanılmasını təmin etdi. Yenə də görülən işlərin təməlində insana qayğı amilinin dayandığını gördük.*

Bir haşiyə çıxaraq onu xüsusilə vurğulamağı lazım bilirəm ki, xidməti işimlə əlaqədar tez-tez muxtar respublikanın ayrı-ayrı bölgələrində olur, müxtəlif insanlarla görüşürəm. Onlarla söhbətdə başlıca mövzu Naxçıvanın dünəni və bu günüdür. Ordubad şəhərində yaşayan ***təqaüdçü müəllim Südeyif Xəlilov*** deyir ki, insanın həmişə qayğıya ehtiyacı var. Bəziləri bunu dilinə gətirmir, susmağa üstünlük verir, bəziləri məcburiyyət qarşısında müəyyən ehtiyacının ödənilməsi üçün kimlərəsə üz tutur. Bu gün Naxçıvanda buna ehtiyac qalmayıb. Muxtar respublikamızın ən ucqar dağ kəndləri də abadlaşdırılıb, sakinlərin rahat yaşayışı təmin olunub. Bağlar diyarı Ordubad da muxtar respublikanın müasirliyə qovuşmuş bölgələrindən biridir. Son illərdə həm rayon mərkəzində, həm də kənd yaşayış məntəqələrində həyata keçirilən tədbirlərin həcmi o qədər genişdir ki, saatlarla danışsaq da, qurtarmaz. Belə quruculuq tədbirləri həyatımızın hər bir sahəsini əhatə edir. Təhsil, mədəniyyət, səhiyyə, rabitə və digər infrastrukturların normal fəaliyyətini təmin etmək, həmin təşkilatlarda çalışanlara müasir iş şəraiti yaratmaq insanlara qayğının ən böyük ifadəsidir.



Digər bir həmsöhbətim – ***Culfa rayonunun Teyvaz kənd sakini, müəllim Həsənqulu Həşimov*** deyir ki, illər əvvəl səhər kənddən yola düşəndə günortadan sonra rayon mərkəzinə çatırdıq. Çünki yollarımız bərbad vəziyyətdə idi. Belə çətinlikləri hər sahədə görmək olardı. Etiraf edim ki, elə bu səbəbdən doğma kəndi tərk edənlər də az olmadı. Onlar da artıq kəndə qayıdıblar. Çünki hazırda Teyvaz ölkəmizin müasir yaşayış məntəqələrindən birinə çevrilib. Kənddə kompleks quruculuq tədbirləri həyata keçirilib, yollarımız abadlaşdırılıb. Bunların hamısı muxtar respublikamızda insan amilinə verilən dəyərin bariz nümunəsidir və əsrin dörddəbirinə bərabər bir zaman kəsiyində buna nail olmaq inqilabi sıçrayışdır. Biz də yaxşı başa düşürük ki, qazanılanlar elə-belə, asanlıqla əldə olunmayıb, yollar axtarılıb, çətinliklərlə üzləşilib. Hədəfə çatmaq üçün bütün imkanlardan istifadə olunub. Bu gün naxçıvanlılar, çox haqlı olaraq, qürur hissi duyurlar ki, seçilən düzgün yolun yolçularıdır.



Mətləbdən uzaq düşmədən 2019-cu ilə nəzər salsaq, belə qayğının davamlı xarakter aldığının şahidi olarıq. Düzdür, atalar deyib ki, görünən dağa nə bələdçi? Ancaq o da var ki, indiki nəsil dünənimizlə bu günümüzü müqayisə etməyi bacarmalıdır. Dünən insanlar necə yaşayırdılar? Onların qayğıları, problemləri nə idi? Bu problemlərin həllinə dövlət səviyyəsində necə yanaşılırdı? Belə suallar çoxdur. O dövrü yaşayan insanlar həmin suallara çox dolğun cavab verə bilərlər.

Qədim yurd yerimizdə görülən işlərin təməlində məhz bu amil dayanır: vətəndaşlarımız daha da yaxşı yaşasın. Bu isə, sözsüz ki, siyasi sabitlik olan, sosial-iqtisadi inkişaf təmin edilən və insanlara qayğı göstərilən yerdə mümkündür – muxtar respublikamızda olduğu kimi. 2019-cu il də belə faktlarla zəngin olub, əvvəlki illərdə təməli qoyulmuş uğurların qazanılması daha da intensiv xarakter alıb.

Ötən il dekabr ayının 21-də keçirilən beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin onbirinci sessiyasında Ali Məclisin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“2019-cu ildə muxtar respublikada ərzaq, enerji və müdafiə təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər davam etdirilmiş, makroiqtisadi göstəricilər artmışdır. Başa çatmaqda olan il muxtar respublikanın sosial-iqtisadi və ictimai-mədəni həyatında əlamətdar hadisələrlə yadda qalmış, Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi qeyd olunmuş, bütün parametrlər üzrə iqtisadi sabitliyə və davamlı inkişafa nail olunmuşdur”.***

Bu günlərdə Şərur rayonunda həmsöhbət olduğum ***tarix üzrə fəlsəfə doktoru, Aşağı Yaycı kənd tam orta məktəbinin direktoru Yeganə Məmmədova*** deyir:



– Naxçıvan ölkəmizin elə bir bölgəsidir ki, həmişə qayğıya ehtiyacı olub. Tarixin müxtəlif dönəmlərinə nəzər salsaq, bu ehtiyacın heç orta səviyyədə belə ödənilmədiyini görərik. Yalnız ümummilli liderimiz Heydər Əliyev respublikamıza hakimiyyətə gələndən sonra Naxçıvana olan münasibət kökündən dəyişdi. O illərdə bu qədim yurd yerinin inkişafının təməli qoyuldu. Bu inkişafa yeni vüsət verəcək daha böyük yüksəlişə isə 1995-ci ildən başlanıldı. Bu gün muxtar respublika həyatının elə bir sahəsi yoxdur ki, orada genişhəcmli layihələr həyata keçirilməsin, uğurlar qazanılmasın. Dahi öndərlə başlanılan yol bu gün qədim diyarı sürətli tərəqqiyə gətirib çıxarıb.

Muxtar respublikamızın sakinləri torpağa bağlı, zəhmətdən qorxmayan insanlardır. Üstəgəl, Naxçıvan öz yeraltı və yerüstü sərvətləri, bərəkətli və məhsuldar torpaq sahələri ilə ölkə səviyyəsində ən zəngin bir diyardır. Gəlin görək bu gün həmin sərvətlərdən necə istifadə olunur? Burada da bir məsələni xatırlamağa dəyər: iş təkcə onunla bitmir ki, muxtar respublikada güclü iqtisadiyyata nail olmaq üçün geniş potensial var. Məsələ bu potensialdan necə istifadə etməkdir ki, bunun da son illərdə öz həllini tapması hesabına iqtisadiyyatımız xeyli güclənib. Bu gün bir qarış torpağımız belə, əkilməmiş qalmır. Kənd təsərrüfatının inkişafına böyük diqqət yetirilir. Hər il muxtar respublikada genişmiqyaslı meliorasiya tədbirləri həyata keçirilir, regiona yeni kənd təsərrüfatı texnikaları gətirilir. Taxılçılığın, kartofçuluğun, heyvandarlığın və digər sahələrin inkişafı üçün yardımlar verilir. Digər tərəfdən yeni emal və istehsal sahələrinin fəaliyyəti genişləndirilir. Bu müəssisələrin məhsulları daxili bazarda yerli istehsalın çəkisini artırıb. Bəzi məhsullarımız ixrac olunur. Rəqabətədavamlı məhsul istehsalı üçün layihələr həyata keçirilir. Külli miqdarda kreditlər verilir. Bu isə sosial-iqtisadi inkişafda xüsusi çəkisi olan sahibkarlığın inkişafında mühüm amillərdən biridir. Sahibkarlığın inkişafı həm də minlərlə yeni iş yerinin açılmasına şərait yaradır. Bir iş yeri isə bir ailənin yaşayış səviyyəsinin yüksəlməsi deməkdir. Dövlətin dayağı onun insanlarıdır. İnsanların ehtiyacının ödənilməsi onların muxtar respublikada güclü iqtisadiyyata nail olunmasında fəallığını artırıb. Güclü iqtisadiyyatı olan diyarda inkişafı bütün sahələrdə görmək mümkündür. Elə götürək təhsil sahəsini. 35 ilə yaxındır ki, bu sahədə çalışıram. Bəzən düşünürəm: muxtar respublikanın elə bir ucqar dağ və sərhəd yaşayış məntəqəsi yoxdur ki, orada təhsilin inkişafı üçün nə isə edilməsin. Hələ belə ünvanlarda şəhərdə, rayon mərkəzlərində tikilmiş məktəb binalarından seçilməyən, ən azından ikimərtəbəli binaları demirəm. “Bu ünvanlarda necə şərait yaradılıb?” sualının cavabı birmənalıdır. Bu gün elə bir orta təhsil müəssisəsi yoxdur ki, oradan ali məktəblərə qəbul olmasın. Onu da vurğulamağa gərək var: muxtar respublikada artıq kəmiyyət yox, daha çox təhsilin keyfiyyəti diqqətdə saxlanılır.

Elə digər sahələrdə də, necə deyərlər, baş verən böyük dəyişikliklər bu gün qəlbimizi fərəhlə doldurur. Burada da düşünməli olursan: Naxçıvan elə Naxçıvandır, torpaqları, təbii sərvətləri, soyuq qışı, isti yayı olan bir diyar. Bəs niyə sovet dönəmində – 1970-ci illərədək bu işlərin heç 10-15 faizə qədəri görülməyib? Bu gün muxtar respublikada bir ildə ovaxtkı bir beşillikdən beş dəfə artıq belə işlər həyata keçirilir.



***Naxçıvan Muxtar Respublikası Duzdağ Fizioterapiya Xəstəxanasının baş həkimi Heyran Qazıbəyova*** deyir ki, nə zaman televizoru açırsan, haradasa yeni sosial obyektlərin açılışını görürsən, buraya toplanan insanların üzləri gülür, çöhrələri təbəssümə bürünür. Bu təbəssüm muxtar respublikanın inkişafını ən yüksək səviyyədə təmin edən, bu qədim diyarı intibaha qovuşduran Ali Məclis Sədrinə minnətdarlıq ifadəsidir. Ötən il çalışdığım tibb ocağının 40 illik yubileyinin keçirilməsi də biz səhiyyə işçilərinə qayğının növbəti təzahürü oldu.

Müraciət etdiyimiz mövzu elə genişdir ki, bu istiqamətdə görülən işləri kiçik bir yazıda bütün parametrləri ilə əhatə etmək mümkün deyil. Sadəcə olaraq onlardan bir neçəsini sadalamaq kifayət edər. Bəhs olunan müddətdə insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, naxçıvanlıların ərzaq təhlükəsizliyinin təmin edilməsi, bu məqsədlə emal və istehsal müəssisələrinin, nəticə etibarilə, sahibkarlığın problemlərinə həssaslıqla yanaşılması, aztəminatlı ailələrə yardımların göstərilməsi, məhdud fiziki imkanlı şəxslərin cəmiyyətə inteqrasiyası, insanların sağlamlığının mühafizəsi üçün səhiyyə müəssisələrinin müasir tibbi avadanlıqlarla təchizatı, müxtəlif sahələrdə qazandıqları uğurlara görə onların əməyinin dövlət təltiflərinə layiq görülməsi və həyata keçirilən digər tədbirlər məhz insana qayğının ifadəsi olaraq dəyərləndirilir.

Son olaraq onu da deyək ki, ötən illər ərzində muxtar respublikada daha bir ənənə formalaşıb. Bu, hər il bayram günlərində Naxçıvan Qarnizonunun Hərbi Hospitalına, Psixi və Ağciyər Xəstəlikləri dispanserlərinə, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərinə bayram sovqatlarının aparılması, Ali Məclis Sədrinin sakinlərlə görüşməsi, onlara öz arzularını bildirməsidir.

Muxtar respublikanın ən gənc rayonu Kəngərli də bu gün yenilik donundadır. Bütün idarə, müəssisə və təşkilatlar müasir iş şəraiti ilə təmin edilən yeni binalarda fəaliyyət göstərir. Rayonun bütün yaşayış məntəqələrində də geniş həcmdə tikinti-quruculuq tədbirləri aparılıb. ***Çalxanqala kənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini, ailə təsərrüfatı başçısı Şahzadə Vəliyev*** deyir ki, o, Naxçıvana Qərbi Azərbaycan torpağından pənah gətirib. Onun kimi yüzlərlə ailə Naxçıvanda məskunlaşıb. Buraya köçdükdən sonra dövlətimizin hərtərəfli qayğısını görüb: torpaq sahəsi ilə təmin olunub, ailəsi üçün fərdi ev tikdirib. Təşkilatçılıq bacarığına görə onu Çalxanqala kənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini təyin ediblər. Ancaq bu məsul vəzifə onu torpaqdan ayıra bilməyib, öz vəzifəsini yerinə yetirməklə bərabər, həm də ona böyük hörmət gətirən torpaqla təmasdadır.



Həmsöhbətim deyir ki, bu gün həyatımızın bütün sahələri ilə yanaşı, sahibkarlıqla da məşğul olmaq üçün muxtar respublikada hər cür imkan yaradılıb. Texnika və toxumla təchizat, kredit, istehsal olunan məhsulun satışının təşkili, soyuducu anbar – bütün bunların hamısı torpaq mülkiyyətçiləri üçündür. Elə təsərrüfat adamları var ki, artıq özü üçün toxum tədarük edir, kənd təsərrüfatı texnikaları alır, istehsal etdiyi toxumun artığını satır, texnikası ilə qohum-əqrəbasına, həmkəndlilərinə kömək edir, bununla da əlavə qazanca sahib olur. Bu, 25 il əvvəl muxtar respublikada bünövrəsi qoyulan iqtisadi inkişaf siyasətinin bəhrəsidir ki, bununla torpağa baş əyənlərin, tər tökənlərin də sayı çoxalır, nəticədə, daxili bazarda yerli məhsulun çəkisi artır. Deməli, həm torpaq mülkiyyətçisi qazanır, həm istehlakçı, həm də dövlətimiz. Naxçıvanlılar unutmurlar ki, bu gün nail olduqları hər bir müvəffəqiyyətin təməlində böyük dövlət qayğısı dayanır. Bu gün qədim diyarda dinamik xarakter alan insana qayğı milli-mənəvi dəyərə çevrilib.

Artıq 2020-ci ilin ilk günlərini yaşayırıq. Yeni ilə ötən il qazanılmış böyük uğurların sevinci ilə qədəm qoymuşuq. Bu, hər birimizdə yeni ildə yeni uğurlar, yeni qələbələr qazanacağımıza böyük ümidlər yaradır.

**Muxtar MƏMMƏDOV**

# Xeyriyyəçilik, yaxşı əməl, mənəvi saflıq hər bir insanın ən böyük dəyəridir

*Muxtar respublikada müasir tibb ocaqlarının tikilib istifadəyə verilməsi, insanların sağlamlıqlarının qorunması, əhalinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. İnsanların sağlamlıqlarına qovuşmalarına köməklik etmək kimi bir humanist addıma da diyarımızda tez-tez rast gəlirik. Hər gün olmasa da, qəzet səhifələrində və ya televiziya efirlərində naxçıvanlı həkimlər tərəfindən rayonlarda humanitar tibbi aksiyaların keçirildiyinə dair xəbərlərlə tanış oluruq. Bununla yanaşı, yüksəkixtisaslı həkim briqadalarının paytaxt Bakıdan Naxçıvana gələrək bölgələrimizdə humanitar tibbi aksiyalar keçirməsi də ənənə şəklini alıb.*





Belə xeyriyyəçilik tədbirlərinin davamı olaraq yanvarın 14-dən başlayaraq həkim-endokrinoloq Rövşən Həsənovun rəhbərliyi ilə paytaxtda fəaliyyət göstərən xəstəxanaların bir qrup həkimindən ibarət briqada Naxçıvan Diaqnostika Müalicə Mərkəzində ödənişsiz həkim qəbulları həyata keçirir. Həkimlər onlara müraciət edən xəstələri müayinə edir, alınan nəticələrə uyğun lazımi tövsiyələr verirlər.

Mərkəzin baş həkimi Nihad Seyidovla həmsöhbət oluruq. O, keçirilən humanitar aksiya ilə bağlı fikirlərini belə bildirir:

– Biz insanlara xidmət edir, onların sağlamlığı keşiyində dayanırıq. Bu işdə dövlətimizə arxalanırıq. Çünki sosial siyasətin tərkib hissəsi olan səhiyyə sahəsində aparılan islahatlar, qoyulan investisiyalar bir məqsədə xidmət edir: muxtar respublika sakinləri sağlam olsunlar, onlara ən yüksək səviyyəli tibbi xidmət göstərə bilək. Aparılan islahatlar, həyata keçirilən genişmiqyaslı layihələr də belə deməyə əsas verir ki, muxtar respublikamızda tibbi xidmətin səviyyəsi yeni, daha mükəmməl mərhələyə qədəm qoyub. Diyarımızda həm yerli, həm də Bakıdan gələn həkimlər tərəfindən keçirilən humanitar tibbi aksiyalar da görülən bu işlərin tərkib hissəsidir. Bu zaman həm də həkimlər arasında təcrübə mübadiləsi imkanı yaranır. Onu da deyim ki, xəstəliklərin müayinə və müalicəsində daim yeni metodların öyrənilməsi və tətbiq edilməsi hər bir tibb işçisinin gündəlik fəaliyyətinin tərkib hissəsi hesab olunur. Bu baxımdan da belə tədbirlərin keçirilməsi çox əhəmiyyətlidir. Yaradılan bu unikal şəraitə görə kollektivimiz adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirirəm.

Rövşən Həsənovun dedikəri:

– Azərbaycan Respublikası Prezidentinin sosial siyasətinin bir qolu olan səhiyyə sistemində son illər uğurlu islahatlar aparılıb, tibb müəssisələrinin maddi-texniki bazası və kadr potensialı gücləndirilib, bütövlükdə, səhiyyə sahəsində böyük nailiyyətlər əldə edilib. Dövlət başçısının sosialyönümlü siyasətinin nəticəsi olaraq Azərbaycanda çoxsaylı səhiyyə müəssisələrinin tikintisi, əsaslı təmiri və müasir avadanlıqlarla təchiz edilməsi uğurla həyata keçirilir.

Tibbi müayinələr zamanı həkimlər tərəfindən profilaktik baxış keçirilir, sağlamlığa dair məlumatlar və xəstəliklərə səbəb olan risk faktorları ilə bağlı tövsiyələr verilir. Xəstəlik aşkar olunduğu halda pasiyentlər yerində, zərurət yarandığı halda isə bölgələrdə fəaliyyət göstərən ixtisaslaşdırılmış tibb müəssisələrində əlavə müayinə və müalicəyə cəlb olunurlar. Baxmayaraq ki, bu qədim diyar 30 ilə yaxındır, blokadada yaşayır, muxtar respublika rəhbərinin sosial siyasətinin əsas prioriteti olan səhiyyə sistemində qarşıya qoyulan bütün vəzifələr uğurla yerinə yetirilir. Bu mənim humanitar aksiya çərçivəsində Naxçıvana üçüncü gəlişimdir. Hər gəlişimdə də bunu hiss etmişəm.

Həkimlərdən Murad Qocayev qədim diyarımıza ilk dəfədir ki, gəlir. O, tibb elmləri üzrə fəlsəfə doktorudur, Azərbaycan Tibb Universitetində gələcəyin həkimlərinə təhsil verməklə yanaşı, bu cür humanitar aksiyalarda iştirak etməyin ona mənəvi rahatlıq gətirdiyini deyir:

– Azərbaycanın bu gözəl və qədim guşəsində belə bir xeyirxah işdə iştirak etdiyim üçün çox qürurluyam. Bu gün səhər saatlarından burada müayinələrə başlamışıq. Qətiyyən yorğunluq hiss etmirəm. Xəstəxanadakı müasir şərait, xəstə müayinəsi zamanı dəqiq diaqnoz qoymamız üçün lazımi tibbi prosedurların düzgün yerinə yetirilərək bizə təqdim edilməsi işimizi yaxşı qurmağımıza şərait yaradır.

Müayinə üçün müraciət edənlər göstərilən bu diqqət və qayğıya görə əməyi keçən hər kəsə minnətdarlıqlarını bildirirlər. 61 yaşlı şəhər sakini Zenfira Məmmədova:

– Belə aksiyaların təşkili, muxtar respublikada icbari tibbi sığortanın tətbiqinə başlanılması da biz sakinlərin sağlamlığına göstərilən ən böyük qayğıdır. Növbəti aksiyada müayinələr nəticəsində müraciət edənlərin sağlamlıqları ilə bağlı problemlərinin aşkara çıxarılmasının, müalicələrinin təşkil edilməsinin şahidi oldum. Bakı şəhərindən gələn həkimlərdən Xanoğlan Qənbərovun qəbulunda oldum, müayinədən keçdim. Onu da qeyd edim ki, əvvəllər xarici ölkələrdə şəfa axtaran sakinlər indi sağlamlıqlarını öz həkimlərimizə etibar edirlər. Nəticə isə göz qabağındadır: Profilaktika, müayinə, diaqnoz və müalicənin düzgün təşkili, peşəkar və yerli tibbi kadrların işə əsl vətəndaş həssaslığı ilə yanaşması başlıca amillərdəndir.

67 yaşlı Adil Səfərov da bu gün buraya üz tutanlardandır:

– Son illərdə muxtar respublikada istifadəyə verilən xəstəxana binaları, onların təcrübəli kadrlarla, ən müasir texnologiyalarla təmin edilməsi dövlətimizin insan amilinə diqqət və qayğısından xəbər verir. Dünyanın inkişaf etmiş ölkələrinin xəstəxanalarında tətbiq edilən texnologiyalara indi muxtar respublikamızın hər bir səhiyyə ocağında rast gəlmək olur. Blokadanın ilk illərindəki çətinliklərin canlı şahidi kimi bu gözəl ənənəni yaradan və yaşadan böyük ürəkli insanlara minnətdarlığımı bildirirəm.

Qeyd edək ki, bu gün başa çatacaq aksiyada neyrocərrah, terapevt, daxili xəstəliklər üzrə, aritmoloq-invaziv-kardioloq, ümumi cərrah, cərrah, uroloq-androloq, dermatovenereloq, travmatoloq-ortoped ixtisaslı həkimlər iştirak edirlər.

✍ **Ramiyyə ƏKBƏROVA**

# İcbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir



Naxçıvan Şəhər İcra Hakimiyyətində "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Ali Məclis Sədrinin 2019-cu il 26 dekabr tarixli Sərəncamından irəli gələn məsələlərin icrasını təmin etmək və əhalinin maarifləndirilməsi məqsədilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov açaraq bildirib ki, müvafiq sərəncama əsasən bu il yanvarın 1-dən etibarən Naxçıvan şəhərində icbari tibbi sığortanın tətbiqinə başlanılıb. O, icbari tibbi sığortanın əhəmiyyəti barədə danışıb, bu istiqamətdə görülən işləri diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov çıxışında qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamına uyğun olaraq Naxçıvan şəhərindəki bir sıra səhiyyə müəssisələrinə publik hüquqi şəxs statusu verilib və tibb işçilərinin əməkhaqları 50 faiz artırılıb.

Diqqətə çatdırılıb ki, sığortaolunanların tibbi xidmətdən istifadəsini təmin etmək məqsədilə müvafiq göndərişlər 0-18 yaş əhali qrupu üçün Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasına, 18 yaşdan yuxarı şəxslər üçün Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasına, təcili yardım üçün isə Naxçıvan Şəhər Təcili Tibb Mərkəzinə təhvil verilib. Qeyd olunan tibb müəssisələrində agentliyin qeydiyyat məntəqələri fəaliyyət göstərir.

Sonra çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Hakimlər üçün təlim-məşq toplanışı



*Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) dəstəyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Futbol Federasiyasının (NFF) təşkilatçılığı ilə Şərur Olimpiya İdman Kompleksində hakimlər üçün təlim-məşq toplanışı keçirilir.*



Bu məqsədlə AFFA Hakimlər Komitəsinin üzvü, FİFA referisi Anar Salmanov, digər FİFA dərəcəli hakim Ömər Paşayev və fiziki hazırlıq üzrə məşqçi Rüstəm Rüstəmli muxtar respublikada səfərdədirlər. Toplanışa Region Liqa Naxçıvan Zonasının oyunlarını idarə edən 15 hakim qatılıb.

Öncəki kurs və seminarlarda olduğu kimi, Naxçıvanda futbol hakimliyinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlim-məşq toplanışı plana uyğun olaraq gün ərzində seminar, taktiki-texniki və fiziki hazırlıq məşqlərini əhatə edir.

Hakimlərin hazırkı durumu və keçirilən təlim-məşq toplanışı barədə FİFA referisi Anar Salmanovun fikirlərini öyrəndik: "Naxçıvanda hakimliklə bağlı sıx qrafiklə çalışırıq. Əvvəl bura gələrkən seminarlara 10 hakim qatılırdı, indi isə onların sayı çoxalıb. Verilən qərara əsasən futzal və futbol matçlarını idarə edən referilər artıq bölünüb. Təlim-məşq toplanışında daha çox üstünlük fiziki yükləmələrə verilir. Çünki növbəti oyunlara kimi hakimlərimiz tam olaraq hazır vəziyyətdə meydana çıxmalıdırlar. Bununla yanaşı, nəzəri seminarlarda matçları analiz edir, idarəçiliklə bağlı mənfi, müsbət cəhətlərini onların özlərinə çatdırırıq. Gələcək oyunlarda bu təhlillərin faydası çox olacaq. Çünki biz onlara birbaşa hakimlik etdikləri matçlarda yaşananlar üzərindən fikir bildirdik. Bu vəziyyətdə hakimlər öz səhvlərini daha yaxşı anlayır və gələcək oyunlarda daha diqqətli olurlar. Məqsədimiz hakimlərin nəzəri və praktik cəhətdən özlərini inkişaf etdirmələrinə nail olmaqdır. Muxtar respublikada hakimlərə artıq oyun qaydaları ilə bağlı kitablar paylanılıb. Bundan əlavə, kurs və seminarlarda mütəxəssis rəyləri, tövsiyələri və fikirləri onların peşəkar hakimlik istiqamətində inkişaf etməsinə öz töhfəsini verəcəkdir. Bu gün muxtar respublikada AFFA və NFF-nin əməkdaşlığı nəticəsində bölgədə futbol hakimliyi ilə bağlı önəmli addımlar atılır və atılmaqdadır. Biz mütəxəssislər də əlimizdən gələni edirik ki, Naxçıvanda bacarıqlı, istedadlı hakimlər formalaşsın. Onların da özlərini inkişaf etdirmələri üçün səy göstərmələri, peşəkar istiqamət almaları bizi sevindirir. Səhvlər qaçılmazdır, hər bir insan kimi hakimlər də yanlış qərarlar qəbul edir, amma peşəkar cəhətdən yanaşsaq, hakimlikdə səhvlər minimum həddə çatdırılmalıdır. Zaman keçdikcə, bu amilin də öz həllini tapacağına inanıram".

Qeyd edək ki, təlim-məşq toplanışı bu gün başa çatacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

# "Naxçıvan" Universitetinin müəllim kollektivi avropalı təhsil ekspertləri ilə təlimdə iştirak edib

"Naxçıvan" Universitetinin müəllim kollektivi universitetin tərəfdaş olduğu və Avropa Komissiyası tərəfindən maliyyələşən ERASMUS+EQAC (Azərbaycan universitetlərində keyfiyyətin təminatı mərkəzlərinin qurulması və inkişaf etdirilməsi) layihəsi çərçivəsində Bakı Biznes Universitetində baş tutan təlimdə iştirak edib. Beşgünlük təlim keyfiyyət təminatı üzrə avropalı ekspert İnga Juknyte-Petreikiene tərəfindən keçirilib. Təlimdə müəllim kollektivi ilə avropalı təhsil eksperti arasında təhsilin keyfiyyəti barədə müzakirələr aparılıb. Təlimin məqsədi tədris prosesinin tələbəyönümlü təhsil əsasında qurulmasını praktik olaraq nümayiş etdirmək olub.

Müəllim heyəti qruplar şəklində yeni tədris metodlarına uyğun olaraq təqdimatlar hazırlayaraq nümayiş etdirib. Təlim iştirakçılarına sertifikatlar verilib.

**Seyfur HACIMURADOV**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti aşağıdakı dekan və kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqə elan edir*

**Fakültə üzrə dekan vəzifəsini tutmaq üçün**

*1. Sosial idarəetmə və hüquq fakültəsi*
*2. İncəsənət fakültəsi*

**Kafedra üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün**

*1. Kimya*
*2. Fəlsəfə və sosial iş*

Azərbaycan Respublikası Təhsil Nazirliyi kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na əsasən müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətinədək qəbul edilir. Sənədləri rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərmək lazımdır.

***Ünvan: Naxçıvan şəhəri,***
***Universitet şəhərciyi***
***Naxçıvan Dövlət Universiteti***
***Telefon: (036) 545-23-66***
***Rektorluq***

## *İtmişdir*

Hüseynzadə Fazil Nəcəf oğlunun adına olan evin 104011000052-05101093017 reyestr nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Əliyev Abbas Məmməd oğlunun adına olan evin 2335 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 35